

*“Azərbaycan” qəzetinin 301-ci nömrəsinin 1-ci səhifəsi*





**Çərşənbə axşamı, 21 oktyabr 1919-cu il, nömrə 301**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Səşənbə, 26 məhərrəmül-haram sənə 1338. 21 təşrini-əvvəl 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə “Azərbaycan” idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 2 manat 50 q.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.**

## ÇƏKMƏÇİ KARGAHXANASI “ABAROT”

Bununla möhtərəm müştərilərimizə elan ediriz ki, Nikolayevski küçədə, Parlaman qarşısında vaqe “Abarot” nam çəkməçi mağazamızda bu gündən etibarən yenə də əvvəlki qayda üzrə zakazlar [sifarişlər] qəbul olunur. Ustalarımızın mahirliyi və materiallarımızın əlalığı möhtərəm müştərilərimizi məmnun buraxacaqlarına əminiz.

Telefon 51-32.

Kamali-ehtiramla: Abdulla Musazadə.

*11468*

## ELAN

Hökumət Müfəttişliyi naziri həzrətlərinin 12 həmin oktyabr 1438 nömrə təliqəsinə binaən [rəsmi məktubuna əsasən], bu gündən etibarən Cümhuriyyətimiz daxilində olan ümum gömrükxanaların, əvvəl mərhələdə Ağstafa gömrükxanasının təftişinə şüru etdim [başladım].

Və ümumdan kamali-ehtiram ilə rica və təmənna edirəm ki, məzkur [deyilən] gömrükxanaya əşya və malların müsadirəsi və hakəza [eləcə də] qeyri biqanunluqlar barədə olan şikayətlərini Hökumət Müfəttişliyi Nəzarətinə (Dəniz kənarı, Mirbabayevin evləri) mənə kitabətən [yazılı] və yaxud şifahən Ağstafa stasyonunda məlum və ixbar etsinlər [xəbər versinlər].

*Dövlət Müfəttişliyi nazirinin*
*xüsusi əmrlər məmuru:*
*Hüseyn Məcnunbəyov.*
*T-290*

## SİRK “MODERN”

Səşənbə günü oktyabrın 21-ndə 1919-cu ildə məşhur sportsmen Pyotr Nikolayeviç Yelizarov tərəfindən mükəmməl surətdə təşkil edilmiş Fransa güləş mübarizəsinin mabədi.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: Qara Maska – Qırmızı Maska.

2-nci: Jan-de-Kolon – Yermak.

3-ncü: Staroşvili – Makarov.

Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında.

Tamaşa başlanacaq 8-də, qurtaracaq 12-də.

Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

Elan: Məşhur türk pəhləvanı Gənc Əlinin benefisi hazırlanır.

*11466*

## "CORCİAN MEYL"İN MƏQALƏSİ

Tiflisdə nəşr edilən ingiliscə "Corcian meyl" qəzetəsinin, tərcüməsini dərc etdiyimiz məqaləsinə oxucuların nəzər-diqqətini cəlb ediriz.

Daşnak politikasının əsaslarından biri olan yalançılıq üsuluna qarşı etiraz edən və bu üsulu Qafqaz millətləri arasında düşmənçilik davamına bais bilib də, bu yolda dadü fəryad edən indiyə qədər qafqazlılar idilər və bunlardan da baxüsus [xüsusilə] Azərbaycan türkləri idi. Bu gün isə böylə bir etirazı artıq avropalılar ağzından dəxi eşitməklə, qəlbimizdə bir məmnuniyyət hissi dərk etdiyimizi heç də gizlətmək istəməyiriz. Arzumuz budur ki, bu məqalə Avropa mətbuatına dəxi keçib, daşnak yalanlarına inananları ayıldıb, doğru və həqiqətə qarşı yumulmuş olan gözləri açdırsın və bu yalanlar vasitəsilə nə qədər zəlalət və rəzalətlər törəndiyini və bunun nəticəsi olaraq nə kimi haqsızlıqlara yol verildiyini Avropa əfkari-ümumiyyəsinə [ictimaiyyətinə] anlatsın.

Bu məqalənin zühuru, "Daşnak" partiyasının yeni bir məğlubiyyətidir.

Erməni millətinin müqəddəratını əlinə almaqla, millətin özünə aid olan bu haqqı qaba bir yol ilə qəsb etmiş və özözünü bu millətin başında "terror" gücüylə qəyyum tikmiş olan bu iqbalsız partiya, Erməni Cümhuriyyəti elanı günündən bəri hər bir təşəbbüsündə və hər bir iqdamatında [addımında] – məqul [məntiqli] və səmimi olmadıqlarına görə – məğlubiyyət ardınca məğlubiyyət yeməkdə və bu məğlubiyyətlərin hər bir vüqusu [meydana gəlməsi] erməni millətinə taqətfərsa və təhəmmülsuz [yorucu və dözülməz] zərər və ziyanlar verməkdədir.

Bu millətin səbrinə heyran qalmamaq qabil deyildir!

Hakimlikdə zalım, qonşuluqda həsud [həsədçi, qısqanc], xüsusiyyatda bədxasiyyət olan bu partiya, siyasətdə dəxi cahildir. Azərbaycan, Gürcüstan, Dağıstan və başqa cümhuriyyətlərin millətləri kimi öz əllərilə öz müqəddəratlarını təyinə çalışmaq əvəzində bunlar, bu daşnaklar bu işi, yəni erməni millətinin təyini-müqəddəratını – "Avropanın borcudur" deyə böylə zənn edirlər ki, Avropa siyasiləri gəlib Azərbaycanı bir tərəfə, Gürcüstanı digər tərəfə və Türkiyəni başqa bir tərəfə itələyib, ermənilərin yerini genləndirəcək və bu yolla meydana bir "Hayastanikəbir" ["Böyük Ermənistan"] zühur edəcəkdir. Bunun üçündür ki, Avropanı qızışdırmaq və bu əmr [iş] icrasına vadar etmək üçün bir yalançılıq kampaniyası təşkil edib, Ermənistan mühitində olan bütün qomşuları zalım və vəhşi, erməniləri isə məzlum və mədəni bir millət şəklində təsvir və tövsif etmək [tanıtmaq] vəzifəsini ifaya məşğul olurlar.

Bundan nə hasil olar?

Yevropalılar gəlib işə vüquf yetirirlər və görürlər ki, ermənilər iddia edən miqyas üzərinə vaqiən [doğrudan] bir "Böyük Ermənistan" təşkil edilərsə, "Böyük Ermənistan" əvəzinə, böyük bir haqsızlıq əmələ gələ bilər. Çünki böylə bir dövlətin əhalisi içində ancaq yüzdə üç faizi erməni millətinə mənsub ola biləcəyindən, böylə bir cüzi əqəlliyyətin [azlığın] əksəriyyəti-qahirə üzərində hakim olması, bu fahiş haqsızlığın təbii nəticəsi olacaq iğtişaş və ixtilallara səbəbiyyət verər.

Daşnak iddiasının nə qədər haqsız olduğunu məhəllində [yerində] təhqiq edən avropalılar, daşnak mənbəyindən çıxan xəbərlərin də bir o qədər yalan olduğunu öyrənib, bu haqsızlığı bərtərəf [aradan qaldırmaq] və bu yalanları rədd etmək istədikdə, daşnaklara yə's və nomidi ariz olub [matəm və ümidsizlik üz verib] "halitəb'dən" çıxır və yevropalıların özlərini söyməyə və "vəfasızlığından" şikayət etməyə başlayırlar.

İştə, daşnak qəzetəsi "Hayastan-Aşxatavor"un; ingilis "Corcian meyl"inin, fövqəzzikrin [yuxarıda adı çəkilənin] təkzib və təkdiri [pisləməsi] zühurunu mövcib [səbəb] olan məqaləsi – daşnakların "hali-təb'dən çıxmış" bir halında yazılmış və daşnak təbiətini tamamilə büruzə vermiş kizb [yalan] və iftiradır ki, ingilis yazıçısı buna qarşı şiddətlə müqabilə etməyə məcbur olmuşdur.

"Corcian meyl"in bu məqaləsi şübhəsiz ki, Londra mətbuatına dəxi keçəcək və ingilis əfkari-ümumiyyəsində daşnaklar və bilümum ermənilər əleyhinə olmaq üzrə bir təbəddülat [dəyişiklik] əmələ gətirəcəkdir.

Zənn edirik ki, daşnak kampaniyasının bütün yalançılıqları tamamilə meydana çıxarsa, bundan nəinki bu yalanlardan mütəzərrir olanlar [zərər görənlər], bəlkə erməni milləti özü də bilaxirə [sonda] mənfəət görə bilər.

*Ayn. H.*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### 18 təşrini-əvvəl iclası

Sədr – Həsən bəy Ağayev.
Katib – Əhməd Cövdət.
İclas açılır 11 saat 45 dəqiqədə.

**Bakı Mövqe Komandanlığı**

Sədr iclası açaraq məsaili-yövmiyyəni [gündəlik məsələləri] və daxil olmuş kağızları elan edir. Birinci sırada Bakı Mövqe Komandanlığı təşkili və iştatası haqqındakı layiheyi-qanuniyyə 3-ncü qiraətdə müzakirə və qəbul edilir.

**Damğa rüsumatı**

Bə'dəhu [ondan sonra] damğa rüsumatının [vergilərinin] artırılması haqqında Maliyyə Nəzarətindən varid [daxil] olmuş layiheyi-qanuniyyənin müzakirəsinə keçilir.

**Rüstəmbəyli Şəfi bəy** – Məruzəçi sifətiylə bəyanat verərək deyir ki, sabiq Rusiya hökuməti zamanında damğa rüsumatı 1901, 1905 və 1914-ncü illərdə üç dəfə artırılmışdı. O vaxt marka vergisi 10, 20 qəpik kimi bir miqdar idi ki, şimdiki kurs nöqteyi-nəzərindən heç dərəcəsindədir. Ona görə, Maliyyə Nəzarəti bu vergini bir neçə qat artırmağı təklif edir.

Vergilər 3 qismə ayrılır. Bunlardan birincisi ən yuxarı dərəcədir ki, qabaqda 2 manat idi, şimdi Nəzarət bunu 5 qat artıraraq 10 manat edir. Aşağı dərəcələr isə az artırılır, üç manat və bir manat olur.

3-ncü dərəcə isə xırda şeylərdir, məsələn, məhkəmələrə verilən ərizə və sa-

irə. Damğa rüsumatı Maliyyə nazirinin layiheyi-qanuniyyəsi üzərində artırıldıqda, xəzinəyə üç milyon yarıma qədər mədaxil vüsul olacağı mütəsəvvərdir [nəzərdə tutulur]. Parlaman komisyonu bu maddələri danışıqsız qəbul etmişdir, yalnız ticarət işlərində ali dərəcəyə aid verginin alınmamasını tələb etmişdir.

**[Ağa] Aşurov** – Deyir ki, damğa rüsumatının artırılması mədaxili artırmaq üçündür. Fəqət mədaxili artırmaq üçün yalnız markanın qiymətini böyütmək kifayət etməz. Zira son zamanlar heç marka yapışdıran yoxdur. Hamı ya heç yapışdırmayır, ya da kopiya yazır. Ona görədir ki, qanuna əməl olunmasını təqib etmək lazımdır. Mən təklif edirəm, damğa rüsumatı o qədər artırılmayıb, qanuna əməl olunması təqib edilsin. Ələlxüsus ki, bu saat Azərbaycan markası işlənmədiyindən, özgə şəklinin bizim kağızlarımıza yapışdırılmasının heç o qədər mənfəəti də yoxdur. Binaənileyh [ona görə], tez tədbirlər görməlidir ki, o vergi də bizim öz xəzinəmizə daxil olsun. Bu nöqteyi-nəzərdən mən güman edirəm ki, bu qanunun hələ vaxtı deyildir.

Hökumət nümayəndəsi bilavasitə və bilvasitə [birbaşa və dolayı] vergilərin artırılmasına baxmayaraq, büdcədə açıqlıq olduğunu və 1905-nci il qiymətlərinə nisbətən verginin pək az artırıldığını bəyanla, damğa rüsumatının artırılmasının lazım və mümkün olduğunu göstərərək, layiheyi-qanuniyyənin eynən qəbulunu rica edir.

**Aşurov** – Layiheyi-qanuniyyənin rəddini təklif edir.

Rəyə vəz olunduqda [səsə qoyulduqda], layiheyi-qanuniyyə birinci və ikinci qiraətdə qəbul edilir.

**Nəşri-elan**

Növbədə nəşri-elan haqqında Ədliyyə Nəzarəti tərəfindən verilmiş olan layiheyi-qanuniyyədir. Məruzəçi Rüstəmbəyli Şəfi bəy.

**Rüstəmbəyli** – Sabiq Rusiya hökuməti zamanında bütün rəsmi elanlar hökumətin rəsmi qəzetələrində dərc və nəşr edilirdi. Bunun üçün mərkəzdə xüsusi qəzetə və quberniyalarda “Qubernski vedomosti” adında qəzetələr vardı. Fəqət Azərbaycanda böylə qəzetələr olmadığından, hökumət elanları “Azərbaycan” qəzetəsində nəşr edilirdi.

Fəqət “Azərbaycan” hökumətin rəsmi qəzetəsi deyildir və onu hamı oxumayır. Şimdi “Azərbaycan Cümhuriyyəti hökumətinin əxbarı" namıyla rəsmi bir qəzetə çıxır. Elanlar dəxi həman qəzetədə nəşr edilməlidirlər. Ona görə, Ədliyyə naziri bütün hökumət qərarnamə və elanlarının məzkur [deyilən] qəzetədə nəşr edilməsi haqqında bu layihəni təqdim etmişdir.

Yalnız bir iş var ki, bu vaxtadək bir çox qərar və əmrnamələr “Azərbaycan”da nəşr edilmişdir. Burası rəsmi bir qəzetə olmadığından, rəsmən onlar qanuni olmamış kimi olurlar və hətta ona əməl etməmək dəxi mümkün olur. Ona görə, məzkur elan və qərardadları da rəsmi surətə salmaq üçün bu xüsusda dəxi bir maddə əlavə edilmişdir.

Bir də, qabaqlarda rəsmi qəzetələrdə elan qiyməti manat yarım idi. Şimdi layiheyi-qanuniyyədə bu qiymət 10 qat artırılaraq 15 manat edilmişdir. Fəqət mən mətbəə və kağız xərcini nəzərə alaraq, 15 manatı az hesab edirəm və təklif edirəm elan qiyməti 30 manat olsun. Bu, mənim öz təklifimdir.

Layiheyi-qanuniyyə səsə qoyularaq, birinci və ikinci qiraətdə bilaetiraz qəbul olunur. (Şəfi bəyin qiymət təklifi ilə bərabər.)

Sıradakı məsələlərin müzakirəsinə keçmədən əvvəl 5 dəqiqə tənəffüs elan edilir.

**Qızıl, gümüş və ağ qızıl**

Tənəffüsdən sonra qızıl, gümüş və ağ qızıl ixracının mən’i [qadağan edilməsi] haqqındakı layiheyi-qanuniyyənin müzakirəsinə keçilir. Məruzəçi Mehdi bəy Hacınski.

(Məlum olduğu üzrə, bu qanun keçən iclasın da yövmiyyə [gündəlik] müzakiratına daxil edilib, sonra Nəzarət nümayəndəsi iclasda olmadığından, növbədən götürülmüşdü. Məruzə həman günkü nömrəmizdə vardı. Binaənileyh təkrarına hacət yoxdur.)

**[Mehdi bəy] Hacıbababəyov** – Müsafirin [səfərə gedənin] özüylə apara biləcəyi zinət şeylərinin adları yazılmamış olduğundan, gələcəkdə qanunun tətbiqində gömrükxana məmurlarıyla camaat arasında ixtilaflar çıxacağını göstərərək, aparılması məmnu [qadağan] olmayan şeylərin siyahısının tərtibini lazım görür.

**Məruzəçi** – Etiraz edir ki, öylə şeylər o qədərdir ki, siyahısı uzun bir şey olar, həm də bir çoxları yaddan çıxar.

Səsə qoyulduqda, birinci və ikinci qiraətdə layiheyi-qanuniyyə komissiyanın təklif etdiyi kimi qəbul olunur.

**Gömrük vergiləri**

Sonra Azərbaycana gətirilən mallardan alınan gömrük vergisinin artırılması haqqındakı layiheyi-qanuniyyənin müzakirəsinə keçilir. Məruzəçi Hacınski Mehdi bəy.

**Əhməd Cövdət** – Məsələnin növbədən götürülərək Maliyyə və Büdcə Komisyonuna verilməsini təklif edir.

**Cavanşir Behbud xan** – Qabaqda idxal olunan mallardan gömrük alınmasının səbəbi bu idi ki, hər tərəfdən külli miqdarda mal gətirilirdi. Şimdi isə mal az gətirilir. Ona görə, onsuz da az gətirilən malın qabağına bir də gömrük səddi çəkmək lazım deyildir. İxrac olunan mallara nə qədər istərsəniz gömrük qoyun, amma idxalata xərc qoyulmasın ki, mal çox gətirilsin, ucuzlaşsın.

**Aşurov** – Sabiq natiqi qismən haqlı görərək təklif edir ki, Azərbaycana gətirilən mallar iki qismə ayrılsın; ərzaq şeylərindən gömrük alınmasın, qalan hər şeydən alınsın.

**Məruzəçi** – Sabiq natiqlərə etiraz edir, deyir ki, idxal olunan mallardan gömrük almamaq məsələsi ayrıca bir məsələdir ki, lazım görülürsə, bu barədə xüsusi bir layiheyi-qanuniyyə təqdim etmək lazımdır. Ərzaq şeyləri isə gömrük vergisindən müafdır [azaddır].

Səsə qoyulduqda, Əhməd Cövdətin təklifi qəbul olunur.

Təklif böylədir: Bu layihə növbədən götürülərək Maliyyə və Büdcə Komissiyasına verilsin.

Sonra bir-iki də xırda layiheyi-qanuniyyəyə baxılaraq, iclas bununla qapanır.

## ERMƏNİLƏR HAQQINDA İNGİLİS MƏTBUATI

**"Ermənilərin Böyük Britaniya siyasətinə təərrüzü"**

Tiflisdə intişar edən [nəşr olunan] ingiliscə "Corcian meyl" qəzetəsi yuxarıdakı sərlövhə ilə məzkur [adı çəkilən] qəzetənin baş mühərriri Skotland Liddell tərəfindən yazılmış bir baş məqaləni dərc edir.

Bu məqalə "Hayastan-Aşxatavor" ("Erməni əmələsi") nam erməni qəzetəsinin "Zaqafqaziyada ingilis intriqaları" ünvanıyla yazdığı məqalələrə cavab olaraq yazıldığı üçün bir az üzərində duralım.

"Corcian meyl" "Aşxatavor"un məqalələrini ingiliscəyə tərcümə edib nəşr etdikdən sonra, öz tərəfindən də "Ermənilərin Zaqafqaziyada nasıl fitnəcuyanə nəşriyyatda bulunduqları" cümləsini qeyd edir.

Baş məqalə isə ermənilər tərəfindən yazılmış bəndləri qisim-qisim ayırıb sırasıyla təhlil edir. Mövcibi-diqqət və əhəmiyyət olduğu üçün eynən qəzetəmizə tərcümə edib nəşr ediriz:

**"Ermənistandan nifrət edənlər"**

Bu yazılar, – "Corcian meyl" yazır – öylə yazılardandır ki, buna qarşı biz bir qaç dəfə protesto etmişiz. Fəqət, bu protestolara müqabil bizə daşnaklar yenə də "Ermənistandan nifrət edənlər" isnadında bulunmuşlardır.

Bu isə o müfəttinanə [fitnəkar] yalanlardan biridir ki, hədəf və qəsdi Zaqafqaziyanın bir hərcü mərcə məruz qalmasıdır.

Fəqət, eyni zamanda bu yazılar doğrudan-doğruya ingilislərin əleyhinədir. Şimdiyə qədər isə onların əksəriyyən mövzuları gürcülər və müsəlmanlar əleyhində təcavüz və təərrüzatda [hücumda] bulunmaq idi.

Doğrudur, ermənilərin kəndilərinə aid bir çox müzakirə və mübahisəli məsələləri var ki, əgər erməni mətbuatı və erməni propaqandistləri həqayiqə [həqiqətlərə] istinad etmiş olsalar, öz məsələlərinin o qisimlərinə təmas eyləmiş olarlar və bundan da özləri üçün bütün cahanın hüsn-təvəccöh və məhəbbətini qazanarlar idi.

Halbuki bu kampaniya öylə qaidələr və sistemlərlə yalanlar çıxarıb nəşr etməkdədir ki, bu gedişlə bütün başqa dövlətlərin müavinətini qeyb etmək xətərinə [təhlükəsinə] məruz qalmaları mümkündür.

Yuxarıda zikr olunmuş məqalənin tamamilə yalanlar üzərinə istinad etdiyini söyləmək fəzlədir [artıqdır].

Oradakı sübutlar o qədər gülüncdür ki, olduğu kimi ona cavab vermək vaxt qeyb etmək olardı. Bununla bərabər, biz, ələlxüsus şayani-diqqət [diqqətəlayiq] olan bəndlərə təmas edəcəyiz.

**"Siyasiyyata dalıb gömülənlər"**

Biz bilməyiriz ki, həqiqətən ingilislər erməniləri namütənahi [sonsuz, bitməz] bir surətdə siyasiyyata gömülmüş olmalarıyla töhmətləndirdilərmi; fəqət bizə görə bunu söyləməyə ingilislərin pək böyük haqları vardır.

Pək ziyadə danışıqlar çox, az iş – bu günah yalnız ermənilərin başında bir dərd deyildir. Bəzi məsələlər haqqında ermənilərin mübahisələrə girişmələri bizə Rusiyada 1917-nci ilinin yay ayında vüqua gəlmiş hadisələri xatırlatmaqdadır. Bu tarixdə bütün Lehistan [Polşa] və Ukrayna komitələri bir yerə toplanıb Lehistanın və Ukraynanın müqəddəratı məsələsini həll və qət edirlərdi. Fəqət tamamilə unudulmuş bir keyfiyyət idi ki, bu məmləkətlər o tarixdə Almaniyanın işğali-əsgərisi altında bulunurdu.

O zaman Ukrayna və Lehistanı öylə bir adama təşbeh etmək [bənzətmək] ola bilər ki, özünü məhv etmək üzrə bulunanın qarşısında axşam yeməyinin hər hankı bir növünü seçməklə məşğul, fəqət digər tərəfdən evi atəşlərə məruzdur.

Buna müqabil ermənilər, sükun və asayişlə yaşayan qomşu və vətəndaş müsəlmanlarla gözəl keçinmək üçün hümmət etsələr və Sülh Konfransının bütün davalı məsələləri həll eyləməsinə qədər gözətləsələr nə olar? Erməni millətinin yalnız daşnakları deyil, bir çox başçıları da xalqı müsəlmanlar əleyhinə təhrik və təşviq eyləməkdədirlər.

Onlar, məchul bir məfkurə və xəyala gömülüb qalmışlardır ki, o da nərədə nə qədər erməni yaşayırsa, mütləqa bir erməni hökuməti təşəkkül və onun qanunları təəssüs etməlidir, başqaları da əsla səs-küy çıxarmamalıdır. Və "Böyük Ermənistan" fantaziyası o qədər uzağa doğru getməkdədir ki, onların təsəvvürlərində Ermənistan üç dənizdə – Qara dəniz, Adalar dənizi, Xəzər dənizində qeyri-qabili-təsəvvür [təsəvvür edilməsi mümkün olmayan], müdhiş və müəzzəm [əzəmətli] bir şəkil və surət almaqdadır.

Və həqiqətən böylə bir hökumət təşəkkül etsə, orada erməni nüfusu [əhalisi], nüfusi-ümumiyyənin ancaq üçdə birindən ibarət qalacaqdır.

**"Ermənilərin hökumət idarəsində zə'fiyyətləri"**

"Müstəqil Ermənistan" əgər gələcəkdə olsa belə, daha şimdidən "Ermənilərin hökumət idarəsindəki zə'fiyyətləri" [zəif nöqtələri] söylənilməsinə görə (ki, bizcə yeri də vardır) bir az bizi şübhəyə salmaqdadır. Deyəlim ki, bu xüsusi bir mülahizə və fikir olub, bu məmləkətin gələcəyinə heç bir surətlə təsir edəmməz. Fəqət bir şey vazeh [aşkar] və qətidir: Ermənistan tamamilə ayrı və iftiraq etmiş [digərlərindən qopmuş] bir surətdə qalmağa müqtədir deyildir və əsasən, bizzat [şəxsən] Ermənistan da mandat nüfuz və qüvvətinin əlzəmiyyətini [vacibliyini] təsdiq və etiraf etməkdədir ki, bu surətlə mandatını alacaq olan dövlətin müraqibə [diqqəti, müşahidəsi] və nəzarəti altında bulunacaq deməkdir.

**"Sanki Azərbaycan Cümhuriyyəti"**

"Sanki" sözü tamamilə daşnakca qullanılmış bir təbirdir [sözdür]. Bu bir həqarətdir [təhqirdir] və o qədər ucuz və adi bir həqarətdir ki, heç bir söz söyləmədən biz bunu keçiriz.

Fəqət bizcə sükutla keçişdiriləmməyəcək bir fəqərə [fakt] vardır ki, o da guya Azərbaycan öz məmləkətində bulunan erməni nüfusunu məhv etmək üçün cəhd və qeyrət etməkdə imiş. Bu, mövcibi-təhəyyüc [həyəcana səbəb olan] bir şeydir və Qarabağda vüqua gəlmiş əhval da bunu isbat etməkdədir!

Bir zaman bu həvalidə [regionda] tamamilə sükunət var idi. Mübəlliğ və mü-

şəvviqlər [təbliğatçılar və təşviqatçılar] əhalini iğva [yoldan çıxarır] və təhrik edirlərdi. Deyirlərdi ki, "Azərbaycana tabe olmaqdansa, tez məhv və tələf olmaq övladır [yaxşıdır]."

Mövcibi-məs'ədətdir [sevindirici haldır] ki, bizzat məhəlli [yerli] ermənilər Azərbaycanla etilaf edib [razılığa gəlib], ərzitəbəiyyət [tabe oldular] və itaət etdilər. Və şimdi orada ermənilər və müsəlmanlar çox gözəl bir münasibət ilə yaşamaqdadırlar. Və Qarabağda bir çox erməni rəsmi və məsuliyyətli xidmətlər tutmuşlardır. Mövsuq [etibarlı] mənbələrdən bizə verilən xəbərlərə görə, orada öylə bir intizam və asayiş vardır ki, heç bir zamanda yox imiş.

İngilislər ermənilərdən "Qarabağı" cəbrən [zorla] almadılar. Qarabağ, ermənilərdən qövmiyyət (etnoqrafi) cəhətiylə ayrılmış olduğu üçün tamamilə təbii bir surətdə də onlardan uzaqlaşdı.

İngilislər ermənilərdən Naxçıvanı da, Axalkələki də alıb qapmadılar. Fəqət əgər "Aşxatavor"da göstərilən rəqəmləri, yəni Qarabağ və Zəngəzurda 320.000 erməni bulunduğunu və Lor[i] ilə Axalkələkdə dəxi 70.000 erməni mövcudu olduğunu nəzərə alarsaq, bizcə şayani-diqqət olan digər bir məsələ vardır ki, o da nüfusi-ümumiyyənin miqdarı bu məhəllərdə nə qədərdir və yaxud bizzat ermənilər Ermənistanda nə miqdardadır?

**"Xəfi müzakirələr"**

Azərbaycan ilə, İngiltərənin himayəsi altında müstəqil bir Azərbaycan təşkili haqqında xəfi [gizli] müzakirələr olduğunu isbat və işaə etmək [yaymaq] dəxi yalandır!

Kim bu yazıları yazmış isə, bizdən daha az olaraq bunu bilməz deyil. Fəqət nədənsə, aşkar və açıq bir yalanı ortaya atmağı bacara bilmişdir!

Yenə bilqəsd [məqsədli bir şəkildə] uydurulmuş yalan və iftiradır ki, guya Azərbaycana "Qars" topları verilmiş və – "Azərbaycanı alat və vəsaiti-hərbiyyə ilə guya təslih etmək [hərbi alət və vasitələrlə guya silahlandırmaq] istəmişiz." – Azərbaycan ingilislərdən bir ədəd güllə belə almamışdır!

Və nəhayət, doğrusu söz bulammırız o namussuzca ortaya fırladılmış yalana qarşı ki, guya ingilis zabit və əsgərlərinin hüzuruyla [gözü qarşısında] yüzlərcə erməni Yevlax-Şuşa yolunun ortasında qırdırılıb kəsilmiş və guya "Ənvər paşa da general Şattlvortun müsaidəsilə sərbəstcə gəzib təfərrüc və tənəzzüh etməkdə [gəzib-dolaşmaqda, əylənməkdə] imiş."

Əgər bu hər gün nəşr edilən iftira və yalanlarla məmlu [dolu] məqalələri nəzəri-diqqətə alarsaq, erməni və müsəlmanlar arasında bu qədər çox davam edib gedən vuruşma və hücumların səbəblərini bilib araşdırmağı yadımızdan çıxararız!

Həmişə yalanlar işaə etmək [yaymaq], hər gün "qətliama" dair çıxarılmış xəbərləri böyütmək, həmişə "bizim şayani-mərhəmət, mövcibi-təzəllüm [mərhəmətə layiq, yazıq] millətimiz" deyə söylənib durmaq, həmişə müsəlmanlara qarşı təhrikat yapmaq və hər cür fəryadlar ki, "Millətin müdafiəsi üçün öz qüvvətimizlə hərəkət etmək" kimi yayqaralar etmək, zavallı kəndçi əhaliyə o qədər fəna təsirlər ilqa edir [mənfi təsir göstərir] ki, onlar bizzat qomşu müsəlmanlara qarşı bir fitnə





və fəsad çıxarmağı araşdırmağa məruz qalırlar. Və şayani-təəssüfdür [təəssüfə layiqdir] ki, bundan müsəlmanlar daha çox məsul olurlar.

"Ən əski bir dostlarına" qarşı bu qədər casuscasına töhmət edən ermənilərin artıq düşmənləri müsəlmanlara qarşı bəslədikləri kin və iftiraları bir kərə təsəvvür ediniz!

Şayani-təəssüf olan yalnız odur ki, bu qədər müfsid və müfəttinanə [araqarışdıran, fitnəkar] xəbərlər hüdudlar xaricində də, əcnəbi məmləkətlərdə də yayılmağa yol bulurlar!

Daha bir neçə gün əvvəl biz ingiliscə bir radioqramma aldıq ki, "Türklərin Qarsda yeni bir vəhşəti" xəbərini işaə etməkdə idi. Bu radioqramma bütün məmləkətləri gəzdi. Və orada həqiqət naminə bir söz də yox idi, nasıl ki, biz burada tamamilə doğru olaraq əhvala vaqifiz.

Bu, o yalan və iftiralarla məmlu [dolu] propaqandaların yeni bir əsəri idi ki, ancaq casusluq və rəzilanə bir təftin (provokasyon) deyə adlana bilər.

Ermənilər arasında bizim bir çox dostlarımız vardır.

Ona görə də biz öylə bir şey söyləyib də, onları incitməkdən ehtiyat ediriz, fəqət vaqiə vaqiə (faktum) olaraq qalmaqdadır. Və bizim üçün zəmin və səbəb vardır ki, ermənilərin Qafqaziyada tamamilə sui-təfəhhümlü [yanlış anlaşılan] olduqlarını təkrar edəlim.

Və bu, bizzat onların günahıdır. O da bir faktdır ki, başqa məmləkətlərdə ermənilərə qarşı hüsni-təvəccöh və məhəbbət pərvərdə etməkdədirlər [bəsləməkdədirlər]. Bununla onlar, öz xüsusi propaqandalarını haqlı və savab çıxarırlar!

Fəqət onlar qorxmalıdırlar ki, daşnakların yalan, iftira, təftinlər çıxaran kampaniyası davam edəcək olarsa, xaric məmləkətlərdəki bu məhəbbət və təvəccöhü tamamilə qeyb edərlər.

Əgər bu saxta xəbərlər və bəyanat bir dəfə və daimi surətdə ardı kəsilməzsə, mümkündür, öylə bir gün gəlsin ki, artıq doğru xəbərlərə də, erməni millətinin təzəllüm və dərdinə də kimsə inanmaya.

İngiliscə bir zərbi-məsəl var: "Pək çox quyuya salınan qoğa [vedrə] bir gün gələr qırılar."

## TELEQRAF XƏBƏRLƏRİ

*(Azərbaycan simsiz teleqraf mövqifi tərəfindən qəbul edilmişdir)*

*Bolşevik xəbərləri*

**Hərbi əməliyyat**

Boruj tərəfində müvəffəqiyyətli hücumumuz davam edir.

Qərb cəbhəsi: Krasnı Selo şimalında top atışması gedir.

Şiddətli vuruşmadan sonra biz Qatçinanı tərk etdik.

Lepol dairəsində hücum edən qitəatımız [hərbi hissələrimiz] əsirlər, pulemyot və sair qənaimi-həribyyə [hərbi qənimətlər] almışdır.

Kiyev dairəsi: Kəskin və şiddətli vuruşmalardan sonra qəhrəman əsgərlərimiz Mastovoyu almışdır.

Çerniqov dairəsi: Qırmızı qoşunlar hücuma başlamışlardır.

Cənub cəbhəsi: Kursk şəhəri dairəsində hücumumuz genişlənməkdədir.

Düşmən böyük tələfat vermişdir. Qəhrəman Qırmızı atlı qitəatımız düşməni sıxışdıraraq Voronejə yaxınlaşmışdır.

Pakrov dairəsində düşməni təqibdə davam ediriz.

Aşağı Xopyordan şimal-qərbə şiddətli vuruşmalar olur.

Şərq cəbhəsi: Bizim hücuma keçmiş hissələrimiz Troitskdən 40 çağrım cənuba bir neçə kənd işğal etmişdir.

Kostanay və Kurqan dairələrində Qırmızı qoşunlar ricət edən [geri çəkilən] Kolçak qoşunlarını sıxışdırmaqdadırlar.

**Petroqrad fəhlələri silah altında**

Petroqrad – Qırmızı qəzetələr xəbər verirlər ki, səfərbərlik başlanmışdır. Petroqrad Şurası bütün öz üzvlərini silah altına dəvət etmişdir. Bütün sənətkarlar ittifaqı öz üzvlərini silaha dəvət etmişdir. Xalq Təsərrüfat Şurası rəisi ilə katibindən başqa cümlə əzalarını [üzvlərini] cəbhəyə göndərmişdir. Ətraflarda könüllü dəstələri tərtibinə şüru edilmişdir [başlanmışdır]. Qırmızı Petroqrad düşmənə təslim edilməyəcəkdir.

**Sülh təriqi**

Şura Rusiya ilə İngiltərə mədən əmələləri sülh əqdini [imzalanmasını] tələb edirlər. Ümumfransa Zəhmətkeşlər Konfransı Şura Rusiya ilə bilatəxir [dərhal] sülh əqdini istəyirlər. Hərgah biz qalib gəlib Petroqradı əlimizdə saxlasaq, Denikini dəf etmiş olarız və qardaş müharibəsi həmişəlik tamam olar. Qərb zəhmətkeşləri bizimlə sülh əqdini tələb edirlər. Sülh bizim qələbəmizin sabahı olacağına əmin olmalıyız. Qardaş müharibəsinə xitam vermək üçün bizim qalib gəlməmiz lazımdır.

**Denikin cəbhəsində üsyançılar**

Qomel – Denikin cəbhəsində hərəkatda bulunan üsyançılar onu narahat etməkdədirlər. Buna Kiyev ərkani-hərbinin [hərbi qərargahının] aşağıdakı rəsmi məlumatı kafidir:

Umansk dairəsində Kaluqa çətələri ilə vuruşmalar olur. Kiyev qəzetələri bu yaxın günlərdə şəhərdə olan bütün kişilərə səfərbərlik elan ediləcəyini xəbər verirlər.

**Müttəfiqlərin tələbi**

"Tayms" qəzetəsinin yazdığına görə, Müttəfiqlər, Almaniyadan Şura Rusiya əleyhinə edilən ablukada [blokadada] iştirak etməyi tələb edirlər.

**Almaniya mətbuatı**

Axırıncı məlumata nəzərən, latışlar təşrini-əvvəlin 16-sında Riqa yaxınlığında hücumda bulunmuşlar və bunların hücumu dəf edilib geriyə atılmışdır. Riqa ətrafı indilikdə ağır toplar ilə atəşə tuturlar.

*(Qafqaziyada olan Müttəfiqlər heyətinin radio xəbərləri)*

**Vilsonun səhhəti**

Vilsonun səhhəti pisləşməkdədir. Xəstəliyi müxatirəli [təhlükəli] olduğundan ehtiyat edirlər.

**Mərakeşdə**

Mərakeşdə olan İspaniya qoşunları Raysulini pərakəndə edərək onun istehkamatını işğal etmişlərdir.

**İngilislər Macarda**

Budapeştəyə 1800 nəfər İngiltərə əsgərləri gəlmişdir. İki min nəfərin dəxi gəlməsi gözlənir. Bu əsgərlər romaniyalıların Macarıstanı təxliyəsindən sonra milis vəzifəsini görəcəkdir.

**Yaponiya və sülh müahidənaməsi**

Versal müahidənaməsi [sazişi] 19 oktyabrda Yaponiya imperatoruna imza edilməkdən ötrü təqdim ediləcəkdir.

**Klemansonun ricası**

Polkovnik Hauza yazdığı məktubda Klemanso Versal müahidənaməsinin tezliklə qüvvəyə gəlməsi və həman müahidənaməni təmin məqsədilə Vaşinqtonda Cəmiyyəti-Əqvamın ictimasının [Millətlər Cəmiyyətinin yığıncağının] dəvət edilməsini rica edir.

*(İtaliya heyəti radiosu)*

**Gürcüstan iqtisad mürəxxəsi**

Roma – Gürcüstan Xariciyyə naziri müavini Sabaxtaraşvili başda olaraq Gürcüstan Hökumətinin iqtisad mürəxxəsəsi [nümayəndəsi] buraya varid oldu [gəldi]. Heyəti-mürəxxəsə tərtib verilmiş plan üzrə İtaliya ticarət və maliyyə mərkəzlərini ziyarət edəcəkdir.

## QƏZETƏLƏRDƏN

**Əfqanıstan səfiri Moskvada**

Əfqanıstan hökuməti Fövqəladə səfiri Məhəmməd Vəli xan [Darvazi] məiyyətlərində [yanında, müşayiətində] Əfqanıstan ordusu ali nümayəndəsi Seyfürrəhman və səfarət məmurları olaraq Xariciyyə İşləri komissarını ziyarət etmişdir.

Müsahibə əsnasında Əfqanıstan səfiri söyləmişdir ki, Rusiya Cümhuriyyəti komissarının əlini möhkəm sıxaraq ümid edir ki, iki millət arasında başlanmış dostluq müməssili [nümunəsi] olacaq və Şərqin Avropa imperializmi altından xilas olmasına dəxi bir vasitə ola biləcəkdir.

Komissar cavab vermişdir ki, Rusiya Cümhuriyyəti Əfqanıstan ilə olan dostluğuna böyük əhəmiyyət verir. Əfqanıstanın coğrafi vəziyyəti və əfqan xalqının qəhrəman və hərbcu [döyüşkən] olmaları Şərqin istixlası [xilası] mübarizəsində böyük bir rol oynayacaqdır. Rusiya Cümhuriyyəti xüsusən bu fəqərəni [faktı] təqdir və təmcid edir [qiymətləndirir].

14 təşrini-əvvəldə Xalq Komissarları rəisi Lenin, Əfqanıstan Fövqəladə Səfarətini qəbul etmişdir. Qəbulda Xariciyyə İşləri Komissarlığı nümayəndələri də isbati-vücud [iştirak] etmişlərdir.

Səfiri Lenin şu sözlərlə istiqbal etmişdir [qarşılamışdır]:

*"Mən çox şadam ki, fəhlə və köylü hökumətinin qırmızı paytaxtında, imperializm altında inləyərək ona qarşı mübarizəyə qalxışan dostumuz əfqan xalqının nümayəndəsini görürəm."*

Leninə cavab olaraq səfir söyləmişdir:

*"Mən sizə dostanə əlimi uzadaraq ümid edirəm ki, bütün Şərqin Avropa imperializmi pənceyi-qasibanəsindən xilas olmasına siz müavinət edəcəksiniz."*

Müsahibə zamanı səfir qəti surətdə bəyan etmişdir ki, Şərqi-islam [müsəlman Şərqi], Şura Hökumətini zəhmətkeşlər və məzlumlar hökuməti olaraq tanımışdır. Avropa imperializminə Şərqdə məkan yoxdur və olmayacaqdır. Bu yaxın vaxtlarda bütün cahan xalqı bunu eşidib görəcəklərdir.

**İrlandada**

Dublin və başqa şəhərlərdə polis və əsgəri məmurları təhərrilər [axtarışlar] icra edərək, əsləhə [silahlar] və inqilab ədəbiyyatı kəşf etmişlərdir. Bir qaç adam həbs edilmişdir. Həbs edilənlərdən ikisi Parlaman üzvləridir. Məmurlara əhali tərəfindən qarşılıq göstərilməmişdir. Dublində ancaq bir xəfiyyə məmuru qətl edilmişdir.

Parlamanı təmsil edən Doyl Eren müəssisəsi rəsmi əmrnamə ilə buraxılmışdır.

Şu müəssisəni İngiltərə Parlamanında iştirakdan imtina edən Sinn Feyn məbusları təşkil etmiş imişlər.

**Şura Hökuməti ablukası**

Müttəfiqlərin Şura Hökumətini abluka [blokada] etmək tələbatına görə, İsveç, Norveç və Danimarka Baş vəkilləri [Baş nazirləri] ilə Xariciyyə nazirləri Kopenhaqa toplancaq və orada yapılacaq müşavirədə Rusiya ablukası xüsusunda bir qərar çıxaracaqlardır.

**Alman nümayəndələrinin həbsi**

Riqa və Libavada olan alman nümayəndələrini Latış hökuməti həbs etmişdir. Almaniya hökuməti bu münasibətlə protesto izhar etmişdir.

**Misirdə üsyan**

Bolşevik xəbərlərinə görə, ingilislərə qarşı Misirdə yeni üsyan başlanmışdır.

**Bolşeviklərin həziməti [məğlubiyyəti]**

Helsinqforsdan yetişən əxbarata nəzərən Rusiya Şimal-qərb Ordusu Pskov istiqamətində bolşeviklərin bir qaç firqəsini zəbt və əsir etmiş, onlardan üçü məhv və tələf edilmişdir. Həmçinin ərkani-hərb [qərargah] əsir düşərək, bir qaç top zəbt və mütəəddid qəryələr [çoxsaylı kəndlər] işğal edilmişdir. Hücum davam edir.

**Macarıstanda**

Peştədən xəbər verirlər ki, Baş Komandanlığın əmrnaməsilə Romaniya qoşunları Tunanın qərb cəhətindəki ərazini təxliyə edərək, yerlərini macar qoşunlarına vermişlərdir.

**Misirdə**

"Morninq post" qəzetəsinin məlumatına nəzərən, siyasi mübarizələr üçün tətil Misirdə daimi bir alət və vasitə olmuşdur. Fəhlə dairələri işbu alətdən, yəni tətildən istifadə etmək yollarını müzakirə edirlər. Qahirədə fransız üsulunca bir zəhmət borsası açılaraq zəhmət namından iradələr [qərarlar] nəşr etmişdir.

İskəndəriyyədə iskələ [liman] fəhlələri tətil edərək maaşlarının iki qat artırılmasını tələb edirlər. İş vaxtının səkkiz saata endirilməsini hər tərəfdən tələb edirlər.

Qahirədə tramvay, omnibus, cığara [siqaret] fabrikası və strajniklər elani-tətil etmişlərdir. İskəndəriyyədə fırınçılar, perukarlar, mağaza və dəmiryol xidmətçiləri dəxi tətil edirlər. Tətil hərəkətləri iqtisadi deyil, siyasi bir mahiyyət daşımadadır.

**Misir Sədrəzəmi həyatına suiqəsd**

"Deyli teleqraf"ın verdiyi əxbarata [xəbərlərə] nəzərən eylül [sentyabr] ayı əvvəlində Misir Sədrəzəminin [Baş nazirinin] həyatına bomba ataraq suiqəsd etmişlərsə də, müşarülileyhə [haqqında danışılan şəxsə] bir zərər yetirəmməmişlərdir.

**Denikinə qarşı suiqəsd**

Denikin[in] həyatına suiqəsd etməkdə müttəhim edilən 7 adam hərbi məhkəmə tərəfindən edam cəzasına məhkum edilərək, Rostov (Don) şəhərində qurşuna dizilmişlərdir.

**Qafqaziyanı idarə**

"Slovo" qəzetəsində dərc edilmiş bir xəbərə nəzərən, Dabravol ordusu dairəsini Xarkov, Kiyev və Odessa hərbi nahiyələrinə təqsim etmək [bölmək] məsələsini həll etdikdən sonra, Qafqaziyanı idarə etmək məsələsi də müzakirə edilmiş, bu məsələ isə həll ediləmməmişdir. Zira bilməyirlər ki, Qafqaziyaya hərbi bir dairə, yaxud "arxa" vəziyyəti almış bir tərəf kimimi baxsınlar.

**Finlanda və Şura hökuməti**

Helsinqforsdan xəbər verirlər ki, Fin hökuməti Parlamana təklif edəcəkdir ki, Şura hökumətinin sülh təklifini rədd etsin.

**Almaniya məktəbsiz qalmış**

Kömür fiqdanından [yoxluğundan] bütün Almaniya məkatibinin [məktəblərinin] qapanması xəbərini qəzetələr işar edirlər [bildirirlər].

**Petlyura nümayəndələri Kubanda**

Yekaterinodardan alınan mövsuq [etibarlı] xəbərlərə nəzərən, Petlyura ilə Kuban hökuməti arasında hərbi ittifaq mümkün olmasını bilmək və Ukrayna Direktoriyasıyla Kuban hökuməti fəaliyyətini mərbut etmək [əlaqələndirmək] üçün Petlyura nümayəndələri Kubana göndərilmişdir.

*("K.")*

**Batum və Batum nahiyəsinin Britaniya əsakiri tərəfindən işğalı**

17 təşrini-əvvəldə [oktyabrda] Batumda rəsmən atidəki [aşağıdakı] elan nəşr edilmişdir:

Hal-hazırda Britaniya nəzarəti altında olan Batum şəhəri və Batum nahiyəsi əhalisinə elan.

Batum nahiyəsinin Britaniya əsakiri [əsgərləri] tərəfindən işğal edilməsinə görə və iləridə Sülh Konfransı tərəfindən hüdudi-ərazi məsələsi həll edilənə kimi nizam və qanunu mühafizə etmək niyyətiylə, mən nahiyədə hərbi qubernatorluq təsisi ilə hərbi qubernator da təyin etdim. Daimi hərbi məhkəmə təşkil edilir. Hərbi məhkəmə Batum şəhərində iclas etdiyi kimi, lazım gəldikdə şəhər xaricinə də əzimət edəcəkdir [gedəcəkdir].

Hərbi qubernatora kəndi səvabdidiylə [mülahizəsi ilə] mülki məhkəmə qanunları təsis etmək ixtiyaratı verilir.

Qüvayi-hərbiyyəni [hərbi qüvvələri] təkmil, nahiyə xidmətində bulunmaq üçün yerli əhalidən jandarmeriya və həmçinin xidmət etmək üçün polis təşkil ediləcəkdir.

Hərbi qubernatora ixtiyar verilir ki, idxal olunan mallardan gömrükxana və iskələ [liman] vergisi toplasın və dəmiryolları idarə etmək və həmçinin nahiyədə nizam və qanun mühafizə etmək üçün vergi tərtib versin.

Səhiyyə, xəstəxana və maarif işlərinə və həmçinin şəhər tənviratı [işıqlandırıl-

masıı], su və başqa işlərə lazım olan şəhər məsarifatı [xərcləri] müəyyən miqdarda toplanılacaq vergi və gömrüklər ilə ödəniləcəkdir.

Vergilərin dəxil və sərfi Bələdiyyə İdarəsi kontrolu və Bələdiyyə İdarəsi cələsəsində isbati-vücud [iclasında iştirak] edəcək hərbi qubernator nümayəndəsi nəzarəti altında olacaqdır.

Fövqdə məzkur fəqərələrə tövfiqən [yuxarıda deyilən maddələrə uyğun olaraq], mən bütün nahiyə və şəhər əhalisini intizam və asayişə və kəndi adi işləriylə iştiğal etməyə [məşğul olmağa] dəvət edirəm.

İşğalçı məmurların tələblərinə itaət etməyənlər, qeyrilərinə ibrət verə biləcək bir təriqdə [qaydada] cəzalanmalıdırlar.

Britaniya işğalı mənafeyinə zərərli və ya ədavətkaranə hərəkətdə bulunub, cinayət irtikab edənlər [işləyənlər] və etmək istəyənlər və yaxud Britaniya əsakiri nümayəndələri əleyhinə fəaliyyətdə bulunanlar və həmçinin dəmiryolları, körpüləri, teleqraf və telefon xəttlərini, hərbi mühafizlərini, su kəməri və qeyrilərini təxrib edənlər – kimə mütəəlliq [məxsus] olur isə olsun – və işbu elanın qərarlarına itaətsizlik göstərənlər, mülki və ya hərbi məhkəməyə verilərək, edam cəzasına və ya cinayətindən asılı başqa yüngül cəzaya məhkum ediləcəklərdir.

*İmza etdi: Britaniya Qara dəniz Qüvası [Qüvvələri]*
*Baş Komandanı General Miln.*
*10 təşrini-əvvəl 1919.*

**Kubanın abluka edilməsi**

Kuban hökumətində rəsmi surətdə Cənub Rusiya müsəlləh [silahlı] qüvvələri komandanı tərəfindən Kubanın iqtisadi abluka edilməsinə dair xəbər alınmışdır. Dəmiryol və dəniz təriqilə [yoluyla] hər növdən olursa-olsun bütün ərzağın Kubana gətirilməsi abluka mövcibincə [blokadaya əsasən] mən' [qadağan] edilmişdir.

## DAĞISTANDA

**Dağıstan nümayəndələrinin ictiması**

Təşrini-əvvəlin 10-nda Dargin mahalı Levaşi qəryəsində [kəndində] Dağıstan Cümhuriyyəti şeyxülislamı Əli Hacı Akuşinskinin təşəbbüsüylə dəvət edilən bütün Dağıstan əhalisinin nümayəndələri ictiması güşad edilmişdir [yığıncağı açılmışdır]. İctimaya Dağıstanlılar Məclisi sədarətiylə bir çox üzvləri getmişlərdir.

**Qroznıda olan yanğından xəsarətlər**

Əmələ gəlmiş yanğından külli xəsarətlər olduğu anlaşılır. Vladiqafqaz dəmiryolunun 40 milyon həcmində olan anbarlarından 4 milyon həcmində anbarlarda olan 3 milyona qərib [yaxın] neft yanıb məhv olmuşdur. Vəsaili-nəqliyyə [nəqliyyat vasitələri] qismindən 80 neft aparan vaqon və 93 lokomotiv tələf olmuşdur.

**Dərbənddə**

Donanma komandanının əmrinə binaən [əsasən], Dərbənddə gəmilərin sahilə yanaşmalarına ancaq gündüzlər icazə verilir. Gəmilər sahildən beş mil uzaqda dayanmalıdırlar. Gecə vaxtı sahil yaxınlığında olan bütün gəmilər xəbərdar edilmədən qərq ediləcəkdirlər.





## İRAN İŞLƏRİ

**Denikinçilər İranda**

Ənzəlidən Baş Gömrük İdarəsi Mərkəzi İdarəyə xəbər verir ki, hökumət tərəfindən İrandan kənara mal çıxartması qadağan edildiyinə baxmayaraq, Ənzəlidə olan Denikin adamları ingiliz saldatlarının köməyi ilə Ənzəlidən külli miqdarda mal çıxarıb aparırlar. Hər gün bir neçə paraxod yüklü olaraq Ənzəlidən Rusiyaya gedir.

**Hacı Baba xan Ərdəbili**

"İran" qəzetəsinin verdiyi məlumata görə, neçə il əvvəl İrandan qaçmış olan məşhur cani və quldur Hacı Baba xan Ərdəbili yenidən İran torpağına keçib, 400 nəfər müsəlləh [silahlı] könüllülərdən ibarət olan dəstəsilə İran hökuməti əleyhinə hərəkata başlamışdır. Şahsevənlərdən də bir çox quldur dəstələri ona qoşulmuşlardır. Hacı Baba xan Ərdəbili Biləsuvar tərəflərində əməliyyatda bulunmaqdadır. Hökumət tərəfindən onun üzərinə böyük bir kazak dəstəsi göndərilmişdir.

**Ərdəbildə**

Ərdəbildən "İran" qəzetəsinə yazırlar: *"Ərdəbilin halı nəhayətdə çətindir. Ətraf Şahsevən quldurları ilə doludur. Ərdəbil hakimi Əmirüssəltənənin fəaliyyətsizlik göstərdiyindən, quldurların hərəkatı get-gedə vüsətlənməkdədir. Yeni hakim Siddiqüssəltənə gəldikdən sonra bir qədər sakitlik olmuşduysa da, lakin bu, müvəqqəti oldu. Bu günlərdə Cəbədar qəryəsi yaxınlığında hökumət qoşunları ilə Yurtçu quldurları arasında toqquşma vaqe olub, hər iki tərəfdən ölən və yaralanan vardır. Təbrizdən hökumət qoşunlarına kömək gələcəyi gözlənir.*

*Hökumətin əleyhinə hərəkatda bulunanlar Alarlı, Xocabəyli, Yurtçu və qeyrə tayfalardır. Quldurların başçıları Məhəmməd İsmayıl xan, Qulam xan və qeyriləridir.*

*Əhali quldurların əlindən təngə gəlib və dəfəatla mərkəzi hökumətə müraciət etmişlərdir. Hərəkatın kəsbi-şiddət və vüsət etməsindən ehtiraz edərək [narahat olaraq], qəzetələr hökumətdən ciddi tədbilər ittixazını [tədbirlər görülməsini] tələb edirlər."*

**Cəngəllilər**

"İran" qəzetəsinin yazdığına görə, yenidən cəngəllilərin hərəkatı müşahidə olunmağa başlamışdır.

Neçə gün əqdəm [qabaq] hökumət tərəfindən Əmir Müqtədir bir dəstə qoşun ilə cəngəllilər ilə mübarizəyə göndərilmiş və Ziyabər denilən bir yerdə onların bir dəstəsinə rast gələrək, müharibəyə girişmişdir.

Bir qədər müharibədən sonra cəngəllilər neçə nəfər ölü və yaralı buraxıb qaçmağa məcbur olmuşlardır. Əmir Müqtədirin qoşunu onları bir qədər təqib etdikdən sonra öz mövqelərinə çəkilmişlərdir.

**İran-Azərbaycan**

"İran" qəzetəsi hal-hazırda Azərbaycanın bir çox yerlərində, ələlxüsus Şahsevənlər və Urmiyə ətrafında davam etməkdə olan hərc-mərclik barəsində bir məqalə yazaraq, hökumətdən tezliklə Azərbaycanın xilası üçün ciddi və qəti təd-

birlər ittixazını tələb edir. Qəzetənin dediyinə görə, Azərbaycanın hər yerində bu saat hökumətin əleyhinə böyük cərəyan və hərəkat vardır. Buna səbəb olanlar da kürdlər və Şahsevənlərdir.

Kürdlər və Şahsevənlərin başında məşhur Simko ilə Hacı Baba xan durmuşlardır.

**Hacıbaba xan haqqında**

Astaradan "İran" qəzetəsinin xüsusi müxabiri yazır:

*"Dünən gecə bir nəfər möhtərəm şəxs mənə söylədi ki, Hacı Baba xan Ərdəbili – ki şərarət qəsdilə [şuluqluq məqsədilə] Ərdəbildən qaçıb Bakıya getmiş və orada özünü mühacir deyə adlandırmışdı – bir dəstə atlı və piyada qoşun ilə Badkubə hökuməti tərəfindən Muğan və Şahsevən tayfaları sərhədlərinə yaxınlaşmışdır ki, hal-hazırda İran hökuməti ilə müharibədə bulunan Xocabəyli və Alarlı tayfalarının [köməyilə] hökumətin əleyhinə xüruc [çıxış] edib onu yıxsın. Bundan əlavə, Hacı Baba xan Talış xanları olan Hüseynqulu xan və Rəşid xana məktub yazıb, onları məsləhət və məşvərət üçün Azərbaycan Astarasına dəvət etmişdir.*

*Hər tərəfə mübəlliğlər [təbliğatçılar] və propaqandaçılar göndərib, sadə və elmsiz əhalini, xüsusən elatı öz tərəfinə cəlb edir. Əhaliyə deyir ki: Siz türksünüz və diliniz də türkdür, nə üçün fars hökumətinə itaət edirsiniz? Hökumət tərəfindən əhalinin hamısını hifz etmək üçün əşrar [fitnəçilər] ilə müharibəyə göndərilən kazakların da nizamını pozmağa şüru etmişdir [başlamışdır].*

*Əhali arasında hökumətə nisbət bir dərəcə soyuqluq və nifrət hissi oyandırmağa müvəffəq olmuşdur. Əgər indidən hökumət Hacı Baba xanın hərəkatına mane olub onun şərini əhalinin və məmləkətin başından rəf edərsə [aradan qaldırarsa], əhali sabiqki halında qalar, vəilla [yoxsa] həyəcan və qələyan [çaxnaşma] getgedə artacaqdır. Tezliklə yaxşı və təcrübə görmüş rəislərin komandasında bir dəstə kazak və mümkün olarsa candarma göndərmək lazımdır ki, Hacıbaba xanı və onun adamlarını tərksilah eyləsin və işlər bir qədər islah olunsun. Yoxsa bir çox çətinlik üz verəcəyinə müntəzir [hazır] olmalıdır.*

*Bu saat xəbər gətirdilər ki, Hacı Baba xan Rəşid xana hökm etmişdir ki, İrandan qaçdığı zaman ondan aldıqları tüfəng və əsləhələri [silah-sursatı] Azərbaycan Astarasında onun vüruduna [gəlişinə] qədər hazır etsin. Olmasa, zor ilə alacağını təhdid etmişdir."*

**İdarədən:** "İran" qəzetəsi və onun müxabirinin çoxdan bəri İran hökumətiylə mübarizə edən bir şəxsin fəaliyyətini Azərbaycan hökuməti ilə əlaqədar tutması sırf pravokatsiyadan (müfəttinlik) başqa bir şey deyildir.

**NUXUDA TÜRK DARÜLEYTAMI**

Nuxuda Ümuri-xeyriyyə şöbəsi açıldığını eşitmiş idik.

Şəhər mötəbəranının, bilxassə gündə min rublə kara [qazanca] razı düşməyən zənginlərimizin şöbəyə yardım edib şəhərin düşkünlərinə əl uzadacaqları, yetim balaların küçələrdən gedəcəkləri ümidində idik.





Məəttəəssüf [təəssüf ki], ümidimiz boşa çıxdı.

Ermənilər üçün təsis edilən iki aşxana və bir yetimxana müntəzəmən işini görür.

Türkləri çox olmasına görə Nuxa qəzasına nisbətən minə bir faiz nisbətində əlli nəfərlik türk darüleytamı [yetimxanası] isə güc-bəla ilə iyirmi beşə yavuq çocuğa baxır.

Neyçün?

Zira Nuxa türkləri təvəkkülçüdürlər.

Zira bir ovuc əcnəbinin Xeyriyyə şöbəsində ona qədər nümayəndəsi var.

Bizim isə ancaq iki nümayəndəmiz var ki, biri bələdiyyə tərəfindən göndərilmiş qarnı tox bir zatdır [şəxsdir]. Bəlli ki, toxun acdan xəbəri olmaz.

Biri isə Müəllimlər İttifaqı tərəfindən göndərilmiş. Bir əldən də səs çıxmaz.

Türk darüleytamına çocuq toplanmayır. Məgər şəhərimizdə yetimmi yoxdur? Xayır, aranılarsa, əlli deyil, min yetim bulunar. Öylə isə, neyçün yetimxanaya getməyirlər?

İştə, türk darüleytamını təsvir edəcək halət: Tanıdığım bir yetimi darüleytama qoymuşlardı. İki gün sonra yetim qaçdı. Səbəbini sordum, baxmayırlar dedi. Çocuğun sözünə inanammadım.

Bir qaç gün sonra yolum darüleytamın önündən düşdü. Şəhərin kənarında, gedilməz bir yerdə ev tutmuşlar. Üst qatda əşrafdan biri oturur. Alt qatda yetimlər yatırlar. Darvaza açıq idi, baxdım. Zavallılar yarıçıplaq bir halda həyətdə dururlar. Bənizləri sararmış, məhzun bir halda idilər.

Çocuğun biri yerdə uzanmış, başını daşa söykəmiş, yatırdı. Vücudunu daş incidirmiş ki, iniltisini eşitdim.

Şu çocuğa nə olmuş deyə sordum.

İçlərindən biri, xəstələnmiş deyə bir ah çəkdi. Mürəbbiyəniz nərədədir? Neyçün qeydinə qalmayır?

Mürəbbiyəmiz yoxdur, dedi.

Dərs oxuyurmusunuz? – dedim.

Sabahlar məktəbə gedir, oxuyuruz, dedi.

Bu xəstəyə həkim baxmışmı?

Həkim kimdir? Bura kimsə gəlməyir, dedi.

Mən yəqin etdim ki, sahibsiz bir yurdun yeməyi də sahibsiz olacaq.

Ey gecələr övladları üçün uyuyammayan varlılar, bir kərə də bu zavallıların halını düşününüz! Bir gün iki dürlü yemək yeməyiniz də, bir dürlüsünün parasını bu yurda təxsis ediniz. Olsun ki, bu zavallılar da tərbiyə tapıb, vətən müha-fizləri olarlar.

Möhtərəm hökumətdən Nuxa türk darüleytamının nizama salınmasını Nuxa vəkilinə tövsiyə etməsini rica ediriz.

*Qeydkeş*

**BAKI XƏBƏRLƏRİ**

**Müəllimələr kursu**

Maarif naziri cənab Qaplanovun sərəncamına məbni [əsasən], Bakının Milli Ünas [qızlar] gimnaziyasının otaqlarında türk qadınları üçün kurslar açılmasına qərar verilmişdir. İşbu kurslarda yalnız türk xanımları həftədə üç gün dərsə davam edəcəklərdir. Dərslər oxunacaqdır nahardan sonra saat 4-dən 6-ya qədər. Dərsə davam edən xanımlar üçün üç qism siniflər tədarük olunmuşdur: birinci si-

nifdə bisavad xanımlara yazmaq və oxumaq öyrədilib, arabir bəzi tarixi, ədəbi və siyasi şeylərdən məlumat veriləcəkdir. İkinci sinifdə cüzi savadı olan xanımların hallarına münasib bir tərzdə dərslər veriləcəkdir. Üçüncü qism sinifdə rusca və müsəlmanca ziyalı olan xanımlar üçün milli ədəbiyyatdan, tarixdən və ülumi-şeydən [əşya elmindən] vüsəti-məlumatlarına [məlumatlarının genişlənməsinə] xidmət edici dərslər veriləcəkdir.

İşbu kursların təntənəli bir surətdə açılmaq vaxtı oktyabrın 24-ndə cümə günü saat 12-yə qərar verilmişdir. Ünaslarımızın ürfanına xidmət etmək arzusunda bulunan millət bacılarımızı rəsmi-güşad [açılış mərasimi] məclisinə dəvət ediriz. Xüsusi olaraq dəvətnamələr göndərilməyəcəkdir.

Məclisin sərxeyli [başçısı] olan möhtərəmə [Əfəndizadə] Şəfiqə xanıma müraciət edib dəftərə adlarını qeyd etdirməyi tövsiyə ediriz.

*Gecə kurslarını idarə edən*
*Bakı Darülmüəllimininin müdiri*
*Rəşid bəy Əfəndizadə*
*20 oktyabr sənə 1919*

**Əzl**

Bakı qubernatorunun əmrilə quberniya polis qaraqol müdiri olub, xidmətindən sui-istifadə etməkdə müttəhim və Baş Mülkiyyə Müfəttişliyi tərəfindən tövqif [həbs] edilmiş olan sabiq Bakı qalabəyisi [komendantı] müavini podpolkovnik [Əziz bəy] Bayrambəyov kəndi xidmətindən əzl edilmişdir. Bayrambəyov hələ həbsxanada qalmaqdadır.

Qubernatorun binagüzarlığıyla [sərəncamıyla] Şamaxı uyezdi Qoşun uçastoku pristavı Zülqədərov xidmətindən sui-istifadə etdiyi üçün kəndi xidmətindən əzl edilmiş və təhti-mühakiməyə [mühakimə altına] alınmışdır.

**Metrik şəhadətnamələri haqqında**

Daxiliyyə naziri qubernatora məlum etmişdir ki, metrik şəhadətnamələri almaq üçün bundan sonra qubernatorlara deyil, uyezd qazılarına müraciət etməlidir. Həmin barədə uyezd naçalniklər[i-n]ə məlumat verilməsi rica olunur.

**Salyandan taxıl çıxarılması haqqında**

Salyan Şəhər İdarəsi qubernatora məlum etmişdir ki, neçə gün əqdəm [qabaq] Salyan Duması tərəfindən Cavad uyezdindən kənara taxıl aparılması qadağan edildiyi təhti-qərara alınmışdır. Sonradan Daxiliyyə və Ərzaq nazirləri tərəfindən taxılın çıxarılmasına mümaniət [maneə] olmadığı göstərildiyindən, həman qərardad ləğv edilərək, taxılın sərbəst olaraq çıxarılmasına əmr verildi. Lakin buna baxmayaraq, Salyan pristavı və qeyri məmurları özbaşına hərəkət edib, taxılın Bakıya və qeyri yerlərə aparılmasına mane olurlar. Buna görə də məmurların böylə hərəkatının [hərəkətlərinin] qabağı alınması lazım olduğunu Şəhər İdarəsi qubernatordan rica edir.

**Qaçqınlara dair**

Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinin [Sosial Təminat Nazirliyinin] qaçqınlara müavinət edən nahiyə müdiri bir neçə məmurları ilə bərabər, Azərbaycan sərhədinə toplaşmış olan külli miqdarda qaçqınları yerbəyer etmək üçün Quba uyezdinə getmişdir.





**Postamız**

Hacıqabul istasyonundan 30 mayıs tarixində Bakıya Türk Ədəmi-Mərkəziyyət Firqəsinə göndərilmiş bir məktub dünkü gün təşrini-əvvəlin [oktyabrın] 18-də vüsul bulmuşdur.

**General Mehmandarov**

Lənkəran Bələdiyyə İdarəsi təşrini-əvvəlin 15-də olan iclasında Lənkəran şəhər əhalisi tərəfindən general Mehmandarov cənablarını Məclisi-Məbusan üzvlüyünə intixab etmişlərdir [seçmişlər].

**Şəhərimizin təmizliyi**

Məclisi-Məbusanda Bakı Bələdiyyə İdarəsinə on milyon manat buraxılması haqqında müzakirədə "Bələdiyyə İdarəsi şəhəri təmiz saxlayır" deyən əfəndilər şəhərimizin müsəlman hissəsinə təşrif gətirsələr, şəhərimizin nasıl təmiz saxlanmasını görə bilərlər.

**Bələdiyyə İdarəsi və Elektrik Cəmiyyəti**

Bələdiyyə İdarəsi "Elektriçeskaya sila" cəmiyyətinə bir təliqə [rəsmi məktub] göndərərək məlum etmişdir ki, son zamanlar bir çox zəvat [şəxslər] Bələdiyyə İdarəsinə müraciətən, cəmiyyətə işıq və qüvvət üçün verilən istidalara [xahişlərə], səbəbini göstərməksizin rədd cavab alınmaqdadır. Şəhər ilə Cəmiyyət beynində [arasında] əqd edilən [imzalanan] müqavilənamənin 7-nci maddəsinə məbni [əsasən], Cəmiyyət səbəbsiz rədd cavab verəmməz. Binaənileyh [ona görə], minbəd [bundan sonra] Cəmiyyət rədd cavab verdikdə, istida üzərində xüsusi məlumat yazaraq, Bələdiyyə İdarəsinə elam etməlidir [bildirməlidir].

**Zəhmət məlumatı**

Bakı qradonaçalniki Bələdiyyə İdarəsinə müraciətən, hər ay başında şəhərdə olan təmirat ləvazimatı və zəhmət qiymətləri haqqında qradonaçalstvaya məlumat verməyi rica etmişdir.

**Yeni dövləti xəstəxana**

Sabiq "Səadət" məktəbi mülkündə açılmış yeni dövləti xəstəxana [dövlət xəstəxanası] doktorları tərəfindən yazılacaq reseplər üzrə "dərman vermək işi" Bələdiyyə İdarəsi xəstəxanalarının birinə həvalə olunması qərara alınmışdı. Bələdiyyə İdarəsi Səhhəti-Ümumiyyə Nəzarətinə məlum etmişdir ki, bu iş Qədirovun evindəki Birinci Şəhər xəstəxanasına tapşırılmışdır.

**Fransız lisanında Bakı haqqında məlumat**

Xariciyyə Nəzarəti cənbindəki [nəzdindəki] Məlumat Bürosu Bələdiyyə İdarəsinə müraciətən məlum etmişdir ki, fransız lisanında nəşr ediləcək Bakı haqqında məlumat üçün Bələdiyyə İdarəsinin, Azərbaycan Cümhuriyyəti istiqlaliyyəti elanından bu vaxtadək etdiyi gəlir və çıxarı haqqında məlumat göndərməsi lazımdır. Bələdiyyə İdarəsinin Maliyyə şöbəsi istənilən məlumatı göndərmişdir.

**Şəhər üçün odun**

Bələdiyyə İdarəsi Azərbaycan Dəmiryolları Müdiriyyətinə müraciətən Yalama mövqifində [stansiyasında] şəhər üçün hazırlanan odunu daşımaq üçün 30 ədəd örtülü vaqon istəmişdir. Əlavə məlum etmişdir ki, bu vaxtadək istənilən 20 vaqondan fəqət 9 vaqon verilmişdir. Bu isə

işin ləng olmasına səbəb olur. Halbuki Bələdiyyə İdarəsi bir xüsusi deyil, dövləti idarələrə, şəhərin füqəra sinfinə odun vermək xəyalındadır. Sonra Bələdiyyə İdarəsi rica etmişdir ki, vaqonların vaxtlıvaxtında verilməsi üçün lazımi binagüzarlıq olunsun [sərəncam verilsin].

**Polis və Bələdiyyə İdarəsi**

Qradonaçalstva mühəndisinin təliqəsinə [rəsmi məktubuna] cavabən Bələdiyyə İdarəsi məlum etmişdir ki, 1917 və 1918-nci sənə hadisatı nəticəsində şəhərin təsərrüfat və maliyyə cəhətləri bərbad bir hala gətirildiyindən, Bələdiyyə İdarəsi fəqət hökumətdən alınan istiqraz ilə kəndi məxaricatını zorla örtməyə müvəffəq olurdu. Şəhərin böylə əhvalını nəzərə alaraq, Bələdiyyə İdarəsi polis dairələri təmiratını kəndi öhdəsindən götürmək qəsdilə lazımi yerlərə müraciətdə bulundusa da, müvəffəq olammadı. Şimdi heç olmazsa Bələdiyyə İdarəsinə xəzinədən borc verilməlidir ki, polis dairələrini nizama salmaq mümkün olsun.

## TƏSHİH

Dünkü baş məqaləmizdə ərbabi-yəsarı [sol görüşlü siyasi partiyaları] tərif edən cümlədə "məmləkət əsasının ilğası" cümləsindəki "məmləkət əsası" "mülkiyyət əsası" şəklində oxunmalıdır.

## BİRJADA

Yenidən Kerenskinin paraları tərəqqiyə başlamışdır. Yaxın bir zamanda yenə əvvəlki qiymətləri dərəcəsinə yetişmələri gözlənir. Minlik 1.020 manatdan 1.-150 manata qədər qalxmışdır, 250-lik faizsiz və xırda kəndi qiymətindən 10 faiz əskiyə gedir.

Nikolay 5 yüzlüyü 800-dən 1.500 manata qədər, yüzlüyü 300-330 manata qədər və xırdası 50-80 faizə qədərdir. Osmanlı kağız lirəsi 200 manat və Tiflis parası min manata 15 manat fəzlədir.

Osmanlı altun lirəsi 790 manat, altun onluq 950 manat, imperial 650 manat və Otriş [Avstriya] altunu 2.025 manatdır. Gümüş manat 74 və xırda gümüş para 30 manatdır.

## PARLAMAN KOMİSYONLARINDA

- Maarif Nəzarəti tərəfindən nəşr ediləcək pedaqoji, elmi və ədəbi jurnallar haqqında 16 təşrini-əvvəldə Maarif Nəzarətindən Ləvayehi-Qanuniyyə [Qanun Layihələri] şöbəsinə bir qanun layihəsi varid [daxil] olmuşdur.

- Bakı qəbuledici və sahil radio-stasyonlarının ştataları haqqında 16 təşrini-əvvəldə Posta və Teleqraf Nəzarətindən Parlamanın Ləvayehi-Qanuniyyə şöbəsinə bir qanun layihəsi varid olmuşdur.

- Ünas [qız] edadilərində mürəbbi müavini məmurluğu təşkil olunması haqqında təşrini-əvvəlin 20-ndə Maarif Nəzarətindən Ləvayehi-Qanuniyyə şöbəsinə bir qanun layihəsi varid [daxil] olmuşdur.

- Köy təsərrüfatı alatı [alətləri] alınmaq üçün Ziraət Nəzarəti binagüzarlığına [Əkinçilik Nazirliyi sərəncamına] 5. 000.000 (5 milyon) manat buraxılması haqqında təşrini-əvvəlin 20-sində Ziraət Nəzarətindən Parlamanın Ləvayehi-Qanuniyyə şöbəsinə bir qanun layihəsi varid olmuşdur.

- Səhra farələri [siçanları] ilə mübarizədə bulunmaq məxaricini dövlət hesabına qəbul etmək haqqında təşrini-əvvəlin 20-sində Ziraət Nəzarətindən Ləvayehi-Qanuniyyə şöbəsinə bir qanun layihəsi varid olmuşdur.

## FİRQƏLƏR VƏ CƏMİYYƏTLƏR

### "Müsavat"da

**Əmirhacıyan köyündə məktəb**

Türk Ədəmi-Mərkəziyyət "Müsavat" firqəsinin Əmirhacıyan şöbəsinin ricası üzərinə Əmirhacıyan köyündə məktəblər açılıb müəllimlər göndərilməsi xüsusunda firqə, Maarif Nəzarətinə müraciətdə bulunmuşdur.

**Qadınlara məxsus vaqon**

"Müsavat"ın Balaxana mərkəzi Mədənlər şöbəsindən Bakı Komitəsinə bir ərzi-hal varid [daxil] olmuşdur ki, Bakı ilə Sabunçu arasında gedib-gəlmək çox olduğundan, sabiqdə müsəlman qadınlarına məxsus bir vaqon verilmiş idi. İmdi isə verilmədiyindən, müsəlman qadınları müşkülat görməkdədirlər. Binaənileyh [ona görə], işbu xüsusda Bakı Komitəsindən təşəbbüsatda bulunması rica edilmişdir. Komitə isə Türüq və Məabir Nəzarətinə [Nəqliyyat Nazirliyinə] müraciətdə bulunmuşdur.

**Əkinlərdən bəhrə**

Bu sənə boladılılardan Boladı xanları məhsulatlarının onda bir hissəsini bəhrə [vergi] istədikdə, əkinçilər bu bəhrəni tələb etməkdə xanları haqlı bilməyib imtina etməklə bərabər, Bakıya gəlib Mərkəzi "Müsavat"a müraciət etmişlərdir. "Müsavat" mərkəzi işbu xüsusda hökumət nümayəndələriylə müzakirə etdikdə, qərar verilmişdir ki, lazımi vəchlə təhqiqat edilincəyə qədər bu məsələ dayandırılaraq əkinçilərdən bəhrə alınmasın.

**Lənkəran mahalında**

Lənkəran mahalının Butəsər camaatının Pensər məhəlləsi vəkilləri Bakıya gəlib, keçən sənə bu mahalın sakinləri bolşeviklər tərəfindən talan olduqlarına cəhət, bu sənəlik olaraq [Talışinskaya] Tuğra xanıma bəhrə verə bilməyəcəkləri haqqında "Müsavat" mərkəzinə müraciətlə, müdafiə edilmələri üçün ərizə vermişlərdir. Firqə bu xüsusda təşəbbüsatda bulunmaqdadır.

**İclas**

Səşənbə [çərşənbə axşamı] günü təşrini-əvvəlin [oktyabrın] 21-də axşam saat altıda Türk Ədəmi-Mərkəziyyət firqəsi "Müsavat"ın Bakı Komitəsi iclası vüqu bulacaqdır.

### [Cəmiyyəti-Xeyriyyədə]

**Qaçqınlara ianə**

Dağıstandan fərar etmiş olan Mustafa bəy Bulkanov nam bir tələbəyə 500 manat, Kərbəlayı İmamqulu oğluna 300 manat, Sultan Molla Əhməd qızına 200 manat, Dərbənd müəllimi Əbutalib Seyi-

dova ailəsiylə bərabər 500 manat, Mirağa Məşhədi Mirbaba oğluna 300 manat, 7 nəfərə 700 manat, yaralanmış Dərbənd müəllimi Əbucəfər Məhəmmədova 500 manat, Dağıstan nümayəndələri vasitəsilə iki nəfər çıplaq tələbəyə əlbisə alınması üçün Zəkəriyya Xeyramanova və Əhməd Şahnəzərova 1600 manat Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsi tərəfindən ianə verilmişdir.

6 nəfər şikəst türkə 400 manat və başqa 2 nəfərinə 300 manat Cəmiyyəti-Xeyriyyə tərəfindən ianə verilmişdir. Bunlara Ümuri-Xeyriyyə və Nafiə [Nəzarəti] tərəfindən də müavinət edilib, vətənlərinə getmələri üçün bilet də verilmişdir.

**Füqəraya müavinət**

Məşhədixanım Məlik qızına 200 manat, Güləndam Heybət qızına 100 manat, Mehrbanu Ağaməli qızına 200 manat, Məhəmmədəli Atabala oğluna 200 manat, Püstəxanıma 150 manat və Rza Məşhədihüseyn oğluna 200 manat Cəmiyyəti-Xeyriyyə tərəfindən ianə verilmişdir.

**Həkimlər iclasında**

Yekşənbə [bazar] günü təşrini-əvvəlin 19-nda Bakı Müsəlman Cəmiyyəti-Xeyriyyəsinin sədri Qasım Qasımov həkimlər ilə yapdığı iclasda qaçqınlara tibbi müavinət edilməsi haqqında müzakirə etmişdir. Nəticəsi haqqında gələcək nüsxəmizdə məlumat veriləcəkdir.

**Qaçqınları dezinfekti etmək**

Cəmiyyəti-Xeyriyyənin idarəsində olan 500 nəfərə qədər qaçqınlardan gündə 30 nəfəri dezinfekti icra edilmək üçün dezinfekti odalarına göndərilmişdir.

## AZƏRBAYCANDA

**Ağdaşda Müəllim və Müəllimələr İttifaqı**

1919 sənə 10 təşrini-əvvəl saat 11-də Ərəş məntəqəsi daxilində kain [yerləşən] Ağdaşda olmaq üzrə ümum müəllim və müəllimələrin təşəbbüs və fəaliyyəti ilə Azərbaycan Müəllim və Müəllimələr İttifaqının şöbəsini güşad etmək babında [açmaq haqqında] ümumi ictima [yığıncaq] vaqe oldu.

İctimada Əfəndizadə Məhəmməd bəyin sədarəti və Səfərəlizadə İbrahim əfəndinin katibliyi ilə heyəti-idarə bərvəchiati intixab edildi [aşağıdakı kimi seçildi]:

Sədr: Məhəmməd bəy Əfəndizadə.

Müavini-sədr: İbrahim əfəndi Səfərəlizadə.

Katib: Məhəmməd Hacızadə.

Xəzinədar: Mustafa əfəndi Əfəndizadə.

Üzvi-idarə: Əhmədağa əfəndi Əfəndizadə.

İttifaq bu gündən etibarən öz fəaliyyətinə başlayır.

**Göyçaydan**

Keçən may ayında Daxiliyyə naziri müavini yaranal [Sadıq bəy] Ağabəyov cənabları özünün Göyçaya vürudu [gəlişi] əsnasında camaatın bir xeyli dərdlərinə əlac aradığı kimi, müsəlman qəbristanının ayaqlar altında tapdalanıb mal yatağı





olduğu nəzər-diqqətlərini cəlb etmişdilər. Yaranal həzrətlərinin binagüzarlığı [təşəbbüsü] ilə həman qəbristanlığa hasar çəkməkdən ötrü hökumət bir ianə dəftəri açıb, şəhər əhalisindən qırx min manatdan ziyadə ehsan toplamışdı. Bu pulları sabiq Göyçay qaimməqamı [qəza rəisi] Xankişi bəy Qafarov cənabları (bu halda Bakı vali müavinidir) müvəqqəti olaraq Göyçay xəzinəxanasına tapşırıb vermişdi. Həman qəbristan hasarından ötrü toplanan pulları şimdi camaatdan bir neçə tacir kooperativ açacayıq bəhanəsilə xəzinədən çıxarıb, öz əllərində saxlayıb, bərk alış-veriş etməkdədirlər. Bu keyfiyyətə idarənin diqqətini cəlb etdiyim gibi, Daxiliyyə Nəzarəti müavini yaranal Ağabəyovun da etinasını təmənna edirəm.

Bundan əlavə, Göyçayda mədfun olan qəhrəman türk zabitlərinin məzarlarının üstündə bir nişangah yapmaqdan ötrü Göyçay qaimməqamı [Lütfəli bəy] Zülqədərov cənablarının binagüzarlığı ilə iki ay bundan müqəddəm [qabaq] toplanan otuz beş min manat ianə pulları bu qədər müddətdə Göyçay qazısı Axund Mirmahmud ağanın cibində hərəkətsiz qaldığını qareini-kirama [möhtərəm oxuculara] xəbər verəndən sonra, and verirəm axund cənablarının öz cəddinə, bu ehsanı çox da ləng eyləməyib, qabaq qış ayları gəlməmiş ikən vaxtı fövt verməyib, tez öz yerinə sərf eyləsinlər. Elə olmasın ki, qəbristan hasar pulu kimi nişangah ehsan pulları da beyhudə yerə ciblərdə gəzməsin, çünki ölüm-itim dünyasıdır, əldən-ələ düşər.

*Molla Abdulla Hüseynov Basqali*

## GÜRCÜSTANDA

**Abaşidzenin vürudu**

Gürcü müsəlmanlarının Milli Məclisi sədri Məhəmməd bəy Abaşidze Tiflisə varid olmuşdur [gəlmişdir].

**Türkiyə Övqaf Nəzarəti direktoru**

Bu günlərdə Türkiyə Övqaf Nəzarətinin [Vəqflər Nazirliyinin] vis-direktoru, Hərbiyyə naziri Avni paşa Lordkipanidzenin qardaşı oğlu Əli Nüsrət bəy Lordkipanidze Tiflisə varid olmuşlardır. Əli Nüsrət bəy Tiflisdə iki-üç gün qalacaqdır.

**Batum-Natanebi dəmiryolunda**

Təşrini-əvvəlin 15-ndə Gürcüstan Cümhuriyyəti hökumətilə Zaqafqaziyada olan İngiltərə nümayəndəsi general Bref miyanında [arasında] Batum-Natanebi hissəsində olan dəmiryol xüsusunda bir etilaf [razılaşma] əmələ gəlib, müahidənamə [saziş] dəxi bağlanmışdır. Müahidənamə mövcibincə [sazişə əsasən], Batum-Natanebi hissəsi "sərnişin" və "liman" mövqifləri [stansiyaları] daxil edilməklə İngiltərə məmurları təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

**Amerika dövləti nəzdində Gürcüstan nümayəndəsi**

Gürcüstan Hökumətinin qərarıyla Qambaşidze Amerika dövləti nəzdində nümayəndə təyin edilmişdir.

**Kubanda Gürcüstan nümayəndəsi**

Məclisi-Müəssisan üzvü [Diomid] Topuridze və general Odişelidze Yekaterinodarda Gürcüstan Hökumətinin nümayəndəsi təyin edilmişlərdir.

**50 milyon təxsis**

Əmələ və xidmətçilər üçün əvvəlinci zəruri ərzaq almağa 50 milyon təxsis edilməsinə [vəsait ayrılmasına] dair olan dekreti Gürcüstan Məclisi-Müəssisanı özünün axırıncı iclasında qəbul etmişdir.

**Ziyarət**

Srağagün Ermənistan Maliyyə naziri [Sarkis] Araratyan Gürcüstan Xariciyyə naziri Gegeçkorini ziyarət edib, onunla uzun müsahibədə bulunmuşdur.

**Sibiryadakı gürcülərin nümayəndələri**

Sibiryada və Əqsayi-Şərqdə [Uzaq Şərqdə] sükunət edən gürcülərin Rustamaşvili və Vexavtasidən ibarət nümayəndələri orada yaşayan gürcülər əhvalı ilə hökuməti aşina və onların öz vətənlərinə övdət etmək [qayıtmaq] xahişində olduqlarını bildirmək üçün Sibiryadan Tiflisə varid olmuşlardır [gəlmişlər].

## İDARƏYƏ MƏKTUB

Müdiri-möhtərəm, bu məktubumun qəzetənizdə dərcini rica edirəm.

Türkcə "Azərbaycan" qəzetəsinin 294-ncü nömrəsində yazılmış olduğu üzrə, Pirşağıdakı postun akalodoçniki [sahə polis məmuru] üçün məzkur [deyilən] kənd əhalisindən olan bir neçə nəfərin aralarında qət etdiklərinə görə, üç min manata bir bağ və orada olan milisələrin atları üçün min beş yüz manatlıq arpa-saman alınmışdır. Əlavə, üç min altı yüz manat da həman kənd katibi üçün camaatdan toplayırmışlar və camaat bunun əleyhinə etiraz etdikdə isə bu vergi Balaxana-Sabunçu polis müdirinin əmrilə yığılmasını söyləyib paraları toplamışlar imiş. Böyləcə bir qərar camaat içində olub-olmadığını, paralar kim üçün, nə vaxt və hankı hökm, əmr və kimin sözüylə toplandığından mənim xəbərim yoxdur və bu xüsusda heç bir vaxt heç bir əmr də verməmişəm.

*Balaxana-Sabunçu Polis müdiri:*
*Səməd bəy Əliisgəndərzadə*

**Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*





**Xüsusi müsəlman təvəllüdxanası**
**Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Doktor**
**Əliheydər Allahverdiyev**

Naxoşları qəbul etməyə başlamışdır. Hər gün səhər saat 8-dən 9-adək, axşam saat 4-dən 7-yədək. İçəri şəhər Bolşoy Minaretski küçə, nömrə 1. Bağın qarşısında. Telefon nömrə 36-21.

*9051*

**Doktor M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi. Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-7-yədək. Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

**Berlin Darülfünunu doktoru**
**N. Melkumyan[s]**

Daxili, zöhrəvi, sifilis, "606" və "914" müalicələrini qəbul edir hər gün səhər saat 8-dən 12-yədək, axşam saat 4-dən 7-yədək.

Ünvan: Voronsovski küçə, nömrə 9-11. Kolyubakinski küçənin küncündə. Telefon nömrə 34-34.

**Diş həkimi**
**R. M. Altman**

Gəlib və qəbul edir naxoşları gündüz saat 8 - 2-yədək, axşam saat 4 - 7-yədək. Müsəlman xanımları üçün əlahiddə qəbul olunan otaq. Adres: Şamaxinka, ev nömrə 20. Aptekin qarşısında.

*11417*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları. Qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri.

Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*4051*

**Diş həkimi B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş çıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*9090*

**Təbib Əmir bəy Aslanov**

Qəbul edir naxoşları (daxiliyyə və cildiyyə) axşam saat 4-dən 6-yadək. Adres: Ofiserski küçədə (Nikolayevski küçənin küncündə) nömrə 6. Telefon 41-14.

*11430*

**Diş həkimi A. A. Mirkin**

Dişlərə müalicə olunub və doldurulur. Kauçuk və qızıl üzərində süni dişlər qayırılır. Dişlərin ağrısız çəkilməsi. Qəbul olunur: gündüzlər 9-dan 2-yədək; axşamlar 4-dən 7-yədək. Ünvan: Gimnaziçeski küçə, nömrə 164.

*11426*

**Arvad diş həkimləri**
**Z. A. Şexter və xanım**

Dişlər ağrısız çıxarılır. Qızıl qapaq, qazma və hər növ qayırma dişlər. Dişlərin yaxşı qayı-

rılması təmin olunur. Kənardan gələnlər üçün tezliklə görülür. Qiymətlər münasibdir.

Qəbul olunur səhər saat 9-dan 2-yədək, axşam saat 4-dən 7-yədək.

Voronsovski küçə 17 nömrəli evdə, paradnı qapıdan.

*10218*

**Professor Buyneviçin müsəkkər [sakitləşdirici] kabinetinin sabiq assistenti Doktor Q. Musaelyans**

Ürək, mədə, bağırsaq və qeyri daxiliyyə naxoşluqları qəbul edir səhərlər 9-dan 12-yədək, axşamlar 5-dən 7-yədək. Ünvan: Karantinni və Bolşoy Morskoy küçələrin küncündə (Telefonnı küçənin başında). Telefon: 40-22.

*11446*

**Diş həkimi E. S. Karşteynbaum**

Maddi cəhətdən zəiflər üçün xüsusi güzəştdə bulunur. Diş çıxartmaq ağrı ilə 25 manat, diş çıxartmaq ağrısız 50 manat. Müalicə və doldurması 80 manatdan 100-ə kimi. Məsləhət 15 manat.

Ünvan: Quba meydanı yanında Sisianovski küçə nömrə 41, İsrafilovun evində. Telefon: 22-57.

*11449*

**Diş müalicəxanası D. İ. Zeylidzon**

Xüsusi qızıl və platina işləri. Kötük və körpülər və farforlar. Dişlərin ağrısız çəkilməsi. Qəbul olunur məhzən növbətə yazılmaqla səhərlər saat 9-dan 2-yədək, axşamlar saat 5-dən 7-yədək. Ünvan: Malakanski küçə, ev nömrə 1. Telefon nömrə 19-55.

*11442*

**İtibdir**

Əbdülqasım Hacı Əbdülsəttar oğlu Şıxəliyevin adına Əxzi-Əsgər [Hərbi Çağırış] İdarəsindən verilmiş şəhadətnaməsi, pasportu itib. Etibardan saqitdir [etibarsızdır].

*11467*

Keçən Mart faciəsində təxminən otuz il bundan əqdəm [qabaq] İdareyi-Ruhaniyyədən aldığım atestatım məhv və tələf olduğunu elan edirəm. İrəvan əhli: Axund Hacı Molla İsmayıl Məhəmmədhəsən oğlu Axundzadə.

*11469*

***Müdir: Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**"Corcian meyl"in məqaləsi**

səh. 383. "Ayn. H.": "Azərbaycan" qəzetində bu imza Üzeyir Hacıbəyliyə məxsusdur.

**Ermənilər haqqında ingilis mətbuatı**

səh. 387. "Adalar dənizi": Egey dənizi nəzərdə tutulur.

"Sanki Azərbaycan Cümhuriyyəti": sanki sözü burada "qondarma" mənasında işlədilmişdir.

**Qəzetələrdən**

səh. 392. "Doyl Eren" [Dáil Éireann]: İrlandiya Parlamentinin aşağı palatası.

"Sinn Feyn" [Sinn Féin]: İrlandiyanın müstəqilliyi uğrunda mübarizə aparmaq məqsədi ilə 1905-ci ildə yaradılan təşkilat.

"omnibus": çoxyerli ictimai nəqliyyat növü.

səh. 393. "Yekaterinodar": Rusiyanın cənub-qərbində, Kuban çayının sahilində yerləşən indiki Krasnodar şəhəri 1920-ci ilə qədər Yekaterinodar adlanmışdır.

**İran işləri**

səh. 395. "cəngəllilər" (yaxud cəngəlilər): İranda 1915-1920-ci illərdə Qacarlara qarşı partizan hərəkatı – Cəngəlilər (Cəngəllilər) hərəkatının iştirakçıları.

**Nuxuda türk darüleytamı**

səh. 396. "Nuxu... Nuxa": qəzetdə hər iki şəkildə getmişdir.

**Gürcüstanda**

səh. 403. "Hərbiyyə naziri Avni paşa Lordkipanidze": Avni paşa Hərbiyyə naziri yox, Bəhriyyə [Donanma] naziri olmuşdur.